**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.118**

**ELNARƏ MƏMMƏDOVA***

# PRELÜD JANRININ MİLLİ PROFESSİONAL MUSİQİ MƏDƏNİYYƏTİNDƏ İNKİŞAFINA BİR NƏZƏR

*Təqdim olunan Azərbaycan professional musiqi mədəniyyətində prelüd janrının inkişafına nəzər salınır və fortepiano üçün yazılmış prelüdlərin xüsusiyyətləri işıqlandırılır. Məqalədə prelüd janrının inkişaf tarixi ümumi şəkildə verilir və əsas diqqət bu janrın Azərbaycan bəstəkarlarının yaradıcılığında istifadə olunması məsələlərinə yönəldilir. Qeyd olunur ki, Azərbaycan bəstəkarlarının yaradıcılığında prelüd janrı musiqi dili və məzmun səviyyəsində yenilənir. Vurğulanır ki, prelüd janrında Azərbaycan bəstəkarları özünəməxsus düşüncələrini ifadə etməyə nail olmuşlar.*

***Açar sözlər:*** *prelüd, janr, polifoniya, bəstəkar*, yaradıcılıq

## Giriş

Qərbi Avropa musiqisində mövcud olan bir çox janrlar tədricən Azərbaycan bəstəkarlarının yaradıcılığına daxil olaraq, özünəməxsus bir inkişaf mərhələsi yaratmağa müvəffəq olmuşdur. Xüsusilə, kiçik həcmli musiqi janrlarının milli musiqimizdə formalaşması qısa zaman kəsiyində öz həllini tapmış və milli musiqinin elementləri ilə zənginləşmiş bir şəkildə təqdim olunmuşdur. Belə musiqi janrlarından biri də prelüd olmuşdur. Bir çox Qərbi Avropa musiqi janrları kimi, prelüd də qısa müddət ərzində Azərbaycan bəstəkarlarının yaradıcılığında geniş inkişaf yolu keçmiş və bu sahədə maraqlı nümunələr yaranmışdır. Lakin prelüd janrının milli musiqimizdə inkişafını izləməzdən əvvəl, onun mənsub olduğu tarixə nəzər salmaq maraq olardı.

## Əsas təhlil

Prelüd janrının ilk nümunələrinə İntibah dövründə rast gəlinir və bunlar əsasən müəyyən bir əsərə müqəddimə əhəmiyyəti daşıyırdı. Prelüd janrının inkişafında əhəmiyyətli mərhələni İ.S.Baxın yaradıcılığında izləmək mümkündür. Xüsusilə, İ.S.Baxın "Yaxşı temperasiya olunmuş klavir" əsərində xromatik ardıcıllıqla bütün tonallıqlarda prelüdlərin yazılması bu janrın inkişafında yeni mərhələni açdı. İdeya müxtəlifliyi və musiqi obrazlığının zənginliyi, müəyyən janr əlamətlərinin olması, məzmunun müxtəlifliyi İ.S.Baxın prelüdlərinin əsasını təşkil edir. İ.S.Baxın prelüdlərində poetik obrazın güclə sezilən obyektiv təsvirindən subyektiv həyəcana, fəlsəfi-kədərli dalğınlıqdan yüksək dramatizmə keçidlər incəliklə uyğunlaşır. Romantizm dövründə prelüd janrı daha bir fərqli inkişaf yoluna qədəm qoyur və müstəqil fortepiano pyesi səviyyəsinə yüksəlir. F.Şopenin prelüdlərində diqqəti cəlb edən əsas xüsusiyyət cazibədarlıq, improvizəlik və miniatürlükdür. İmpressionizm dövründə isə K.Debüssinin prelüdləri sanki bəstəkarın yaradıcılığına xas olan tipik cəhətlərin və obrazlar aləminin ifadəsi kimi səslənir. K.Debüssinin "24 prelüd" silsiləsinə daxil olan hər bir pyes müstəqil obrazı əks etdirən miniatür və ya musiqi lövhəsi kimi şərh oluna bilər.

Prelüd janrı rus bəstəkarlarının yaradıcılığında da özünəməxsus yer tutmuşdur. A.Skryabinin, S.Raxmaninovun, D.Şostakoviçin prelüd silsilələri mövzu və obrazlar aləminin bütöv toplusu kimi səciyyələnə bilər. Bunların əksəriyyəti yığcamlığı ilə fərqlənən pyeslərdir. Belə ki, psixoloji məzmun və obrazlılıq A.Skryabinin, müəyyən məişət janrları vasitəsilə təcəssüm etdirilmiş məzmun və obrazlılıq S.Raxmaninov, melodikanın rus mahnıvariliyi ilə aşılanması və ritm-intonasiyaların sərbəst işlənməsi isə D.Şostakoviç üçün səciyyəvidir.

Qərbi Avropa və rus bəstəkarlarının yaradıcılığından bəhrələnən Azərbaycan bəstəkarlarının prelüdləri isə janrın səciyyəvi xüsusiyyətlərini saxlamaqla yanaşı, həm də milli elementlər səviyyəsində yenilənməyə malik olan maraqlı miniatür pyeslərdir. Bu baxımdan milli musiqimizdə prelüd janrının inkişafı mərhələsi hər bir bəstəkarın fərdi dəst-xəttinin inkişafı ilə səciyyələnir.

XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan bəstəkarlıq məktəbi formalaşdıqca, tədricən milli bəstəkarlarımızın yaradıcılığında yeni janr nümunələri bərqərar olmağa başlayır. Bu istiqamətdə irəliləyiş 1940-cı illərdə xüsusilə geniş vüsət alır. Belə ki, bir çox janr nümunələrinin yaranması məhz

bu dövrə təsadüf edir. Bu tendensiya musiqinin müxtəlif sahələrində, xüsusilə simfonik və fortepiano musiqisi sahəsində daha çox nəzərə çarpır. Fortepiano musiqisi sahəsində sonata, sonatina, eləcə də prelüd janrının yaranması 1940-cı illərə təsadüf edir və bunu bir neçə səbəblə izah etmək olar. Belə ki, bu dövrdə professional təhsil alaraq, Qərbi Avropa janrları ilə yaxından tanış olan Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında müxtəlif janrların ilk nümunələrini tətbiq etməyə başlayırlar. Əsas məqsəd Avropa janrlarını milli musiqimizə gətirməklə yanaşı, bu sahəni zənginləşdirmək və bu nümunələri milli elementlərlə zənginləşdirərək, musiqi dili səviyyəsində yenilənməyə nail olmaq idi.

Prelüd janrına əsasən yaradıcılıqlarının ilkin mərhələsində müraciət edən Azərbaycan bəstəkarları bu sahədə bir növ təcrübələrini həyata keçirirdilər. Maraqlıdır ki, milli bəstəkarların əksər hissəsi təhsil illərində bu janrda ilk nümunələri yaradaraq, yaradıcılıqları üçün səciyyəvi olan mövzuları bu sahədə müəyyənləşdirmişlər. Azərbaycan musiqisində 1940-cı illərdə yazılan prelüdlər sonrakı illərdə Q.Qarayev, V.Adıgözəlov, X.Mirzəzadə və digərlərinin yaradıcılığında diqqəti cəlb edən janr sahəsi kimi səciyyələnə bilər.

Azərbaycan musiqisində prelüd janrının ilk nümunələrinə bəstəkar Elmira Nəzirovanın yaradıcılığında rast gəlinir. E.Nəzirovanın "12 prelüd" silsiləsi bəstəkarın yaradıcılığının erkən mərhələsinə aiddir və 1944-cü ilə yazılmışdır. Bəstəkar olmaqla yanaşı, həm də istedadlı pianoçu olan E.Nəzirova bu prelüdlərdən birini Zaqafqaziya respublikalarının dekadasında böyük müvəffəqiyyətlə ifa etmiş və özünəməxsus ifa tərzi ilə əsərin parlaq obraz-emosional məzmununu yaratmağa nail olmuşdur. E.Nəzirovanın prelüdləri incə səmimiliyə və lirik obrazlılığa malik olub, sanki həyat hadisələrini poetik tərzdə ifadə edir. Prelüdlərini özü ifa edən E.Nəzirova bir bəstəkar kimi hiss etdiklərini pyeslərin səslənməsi zamanı dinləyicilərə çatdırmağa nail olmuşdur. "12 prelüd" silsiləsində E.Nəzirova müxtəlif ifaçılıq imkanlarından və mürəkkəb texniki üsullardan istifadə edərək, virtuozluğa malik pyesləri birləşdirmişdir. Prelüdlərin hər biri aydın forma və quruluşa, məntiqi inkişaf edən musiqi məzmununa malik olmaqla yanaşı, geniş inkişaflı musiqi dilinə də malikdir. Belə ki, prelüdlərin musiqi dilində milli xüsusiyyətlərlə Avropa musiqisinə xas olan inkişaf üsulları nəzərə çarpır. Əsasən Avropa bəstəkarlarının istifadə etdiyi motiv işlənməsi, sekvensiya, modulyasiya və digər inkişaf üsulları E.Nəzirovanın prelüdlərinin səciyyəvi xüsusiyyətlərindəndir. Bununla yanaşı, prelüdlərdə xalq musiqisi üçün səciyyəvi olan variasiyalı inkişaf ənənəsinə də əsaslanma nəzərə çarpır. E.Nəzirova müxtəlif ifaçılıq üsullarından istifadə edərək, fərqli obrazlılığa malik olan prelüdlərində İ.S.Baxın, F.Şopenin prelüdləri üçün səciyyəvi olan müxtəlif məzmun və xarakterlərin ifadə olunması ənənəsini davam etdirir. "12 prelüd" silsiləsinin xüsusi tonal planı olmasa da, pyeslərin təzadlılıq prinsipi əsasında qurulması onlarda müəyyən bir obrazlılıq yaradır. Lakin bu prelüdlərdə lirik xəyalpərvərlik və emosional əhval-ruhiyyə daha çox üstünlük təşkil edir. "12 prelüd" silsiləsində yalnız IV prelüd xarakter baxımından fərqlilik təşkil edir. Belə ki, bu prelüd mürəkkəb texniki passajlara və parlaq ifadəli səslənişə malikdir. "12 prelüd" silsiləsində digər janrların xüsusiyyətləri də nəzərə çarpır. Belə ki, etüd, tokkata janrına xas olan cəld və arasıkəsilməz melodik inkişaf silsilənin ilk prelüdləri üçün səciyyəvidir. Eyni zamanda prelüdlərin əksəriyyətində Azərbaycan xalq mahnıları üçün səciyyəvi olan sakit və lirik başlanğıc, 6/8 ölçü, rəqsvarilik özünü büruzə verir. Təzadlılıq prinsipi əsasında qurulan prelüdlərdə sakit və lirik prelüdlər bəzən cəld və hərəkətli tempə malik olan prelüdlərlə növbələşir. Prelüdlər üçün faktura zənginliyi və mürəkkəb ritmik fiqurasiyalar, tonal dəyişkənliyi və modulyasiyalı hərəkət, melodik və harmonik dilin zənginliyi, kənar registrlərin qarşılaşdırılması, fortepiano alətinin bütün texniki imkanlarından bacarıqla istifadə olunması xarakterikdir. Bu xüsusiyyətlər E.Nəzirovanın "12 prelüd" silsiləsini həmin dövrdə yazılan digər bu janr nümunələrindən fərqləndirir.

Dahi bəstəkar Qara Qarayevin fortepiano üçün "24 prelüd" silsiləsi bu janrın milli musiqimizin inkişafında yeni mərhələ oldu. Məlumdur ki, Q.Qarayevin "24 prelüd" silsiləsi hər birində altı prelüd olmaqla dörd dəftərdən ibarətdir. 1952-ci ildə yazmağa başladığı bu silsiləni bəstəkar 20 il ərzində tamamlamışdır. "24 prelüd" silsiləsi ilə yanaşı, Q.Qarayev eyni vaxtda digər əsərləri üzərində də işləyirdi və təbii ki, prelüdlərdə bunların təsiri hiss olunur. Belə ki, silsilənin ilk iki dəftəri Q.Qarayevin "Yeddi gözəl" baletinin və "Alban rapsodiyası"nın yazıldığı dövrə təsadüf edir. "İldırımlı yollarla" baleti ilə üçüncü dəftər, violin və orkestr üçün konserti isə dördüncü dəftərin yazılması ilə eyni dövrə aiddir. Q.Qarayevin "24 prelüd" silsiləsinin xüsusiyyətləri ilə bağlı musiqişünas alim Solmaz Qasımova bu fikirləri vurğulamışdır: *"Q.Qarayev klassiklərin ənənələrini davam etdirərək öz*

*prelüdləri ilə mövzunun özünəməxsusluğunu, janrın orijinal tətbiqi yönümündə yenilikləri gətirmişdir. Prelüdlər lakonikliyi, aforizm ifadəliliyi ilə fərqlənirlər. Qarşımızdakı sanki qravür albomudur, buna görə də onlar təzadlıdırlar. Prelüdlərin proqram adları olmasa da, onların hər birində müəyyən əhval-ruhiyyə, emosional vəziyyət və obrazlı fikir özünü büruzə verir"* [4, s. 50].

"24 prelüd" silsiləsinin tonal planı da diqqəti cəlb edir. Belə ki, Q.Qarayevin silsiləsində İ.S.Bax və F.Şopenin prelüd silsilələrinin prinsipləri sintez edilmiş, major və onun paralel minorunun kvinta dairəsi üzrə növbələşməsinə əsaslanılmışdır. Eyni zamanda silsilədəki eyniadlı major və minor tonallıqlarındakı prelüdlər arasında tonal baxımdan bağlılıq nəzərə çarpır. Silsilənin dörd dəftərinə daxil olan prelüdlər obraz-emosional və məzmun baxımından fərqlilik təşkil edirlər. Belə ki, prelüdlərin birinci dəftərində janra daha dərindən bağlılıq və milli folklorla üzvi əlaqələr tətbiq edilmişdir. Məsələn, №2 və №4 prelüdlərində mahnı-romans, №5 prelüdündə layla, №6 prelüdündə isə dramatik tokkata xüsusiyyətləri özünü büruzə verir. Obrazlar aləminin, ifadə vasitələrinin genişlənməsi, tutqun kolorit isə ikinci dəftərin prelüdləri üçün səciyyəvidir. Belə ki, №8 və №12 prelüdlərdə matəm yürüşü xüsusiyyətləri hiss olunur. Pastoral elementlər №7, noktürn janrına xas əlamətlər isə №9 prelüdündə görünür. "24 prelüd" silsiləsinin üçüncü dəftəri musiqi dilinin və formanın mürəkkəbləşməsi ilə səciyyələnir. Milli xüsusiyyətlərə bağlılığın olması üçüncü dəftərin prelüdlərini digərlərindən fərqləndirir. Musiqinin fəlsəfi məzmunu, düşüncəsinin aydınlığı, üslub incəliyi dördüncü dəftərə xas xüsusiyyətlərdir. Q.Qarayev prelüd janrında klassiklərin ənənələrini davam etdirməklə yanaşı, janrın orijinal tətbiqi yönümündə yeniliklər də tətbiq etmişdir. Belə ki, prelüdlərin hər birində müəyyən obraz dairəsi, emosional vəziyyət, fikir müxtəlifliyi özünü büruzə verir. Prelüdlərin əksəriyyətində lirik poema, layla, matəm yürüşü, xalq bayramı mövzusu, milli xalq mahnı və rəqs janrlarının xüsusiyyətlərini izləmək mümkündür. Bu cəhətlərin mürəkkəb harmonik və polifonik üsullarla vəhdətdə verilməsi isə Q.Qarayevin prelüdlərinin musiqisinə orijinallıq bəxş edir. Q.Qarayev fortepiano alətinin ifaçılıq imkanlarından, obrazlı məzmunla sıx bağlı olan ən müxtəlif faktura üsullarından ifadəli tərzdə istifadə edir. Çox vaxt bu və ya digər ifadə üsulu bütün pyesin obrazlılığını müəyyənləşdirir. Q.Qarayevin prelüdləri həcmcə kiçik və ifaçılıq üsulları baxımından mürəkkəb olmasalar da, əhəmiyyətinə görə bəstəkarın iri həcmli əsərləri ilə eyni səviyyədədirlər.

1950-ci illərdə prelüd janrına müraciət edən bəstəkarlardan biri də Nərgiz Şəfiyeva olmuşdur. N.Şəfiyevanın fortepiano üçün "6 prelüd" silsiləsi üçün bədii məzmunun yığcamlığı və dramaturji inkişafın zənginliyi, harmonik dilin dolğunluğu və metroritmik xüsusiyyətlərin müxtəlifliyi səciyyəvidir.

1960-cı illərdə prelüd janrında yazılmış əsərlər arasında Aydın Əzimovun "İlmələr" prelüd silsiləsi bəstəkarın yaradıcılığına xas olan xüsusiyyətləri ifadə etməsi baxımından diqqətəlayiqdir. Silsilənin "İlmələr" adlandırılması da maraq doğurur. Belə ki, "İlmələr" sözü xalçaçılıq sənəti ilə bağlı olan anlayışdır və prelüdlərin məzmunu, musiqi dilinin inkişaf xətti, metroritmik xüsusiyyətlər sanki ilmələrin toxunuşunu xatırladır. Xalçanın ilmələri kimi, prelüdlər də sanki bir-birilə bağlıdır. Passakaliya janrına xas olan xüsusiyyətlər A.Əzimovun prelüdlərinin səciyyəvi keyfiyyətidir.

1970-ci illərdə prelüd janrında yazılan maraqlı nümunələrdən biri də Adil Bəbirovun "Prelüd-skerso" adlanan fortepiano pyesidir. "Prelüd-skerso" ağır tempdə başlayır və bir növ lirik kantilena üslubunda olan balet adajiosunu xatırladır. Əsərin giriş hissəsi prelüd əhəmiyyəti kəsb edərək, onunla üzvi əlaqəyə malikdir. Hissələr bir-birindən xarakter etibarilə kəskin şəkildə fərqlənir. Belə ki, prelüd hissəsi sakit xarakterə malik olsa da, skerso hissəsi məzmun baxımından daha emosional səslənir. "Prelüd-skerso" əsərinin dramatik məzmunu, *attacca* keçidlərinin olması, dramaturji inkişaf xəttinin arasıkəsilməz olması, hissələr arasında üzvi bağlılıq bu əsərə eyni zamanda sonatinaya xas olan xüsusiyyətlər bəxş edir.

Prelüd janrının inkişafında nəzərə çarpan əsərlərdən biri də Vasif Adıgözəlovun "24 prelüd" silsiləsidir. 1980-ci illərdə yazılmış bu silsilə milli musiqimizdə prelüd janrının inkişafında yeni bir mərhələdir. V.Adıgözəlov bu silsilədə həm klassiklərin, həm də müəllimi Q.Qarayevin ənənələrini davam etdirərək, janrın özünəməxsus dramaturji xüsusiyyətlərini şərh edən maraqlı bir silsilə yaratmağa nail olmuşdur. O, prelüd janrına konkret ifadələr və ümumiləşdirmələr baxımından bir sıra yeniliklər gətirməyə nail olmuşdur. Belə ki, silsilədə V.Adıgözəlovun milli musiqiyə xas olan səs çalarları yaratması, yeni təfəkkür tərzinin nailiyyətləri, texniki üsulların müxtəlifliyi nəzərə çarpır. Özünəməxsus faktura imkanlarına malik olan prelüdlərdə V.Adıgözəlov mükəmməl bələd

olduğu muğam intonasiyalarını tətbiq etmiş və xalq çalğı alətlərinin səslənmə tərzini yaratmışdır. V.Adıgözəlovun "24 prelüd" silsiləsinin xüsusiyyətləri ilə bağlı musiqişünas alim İmruz Əfəndiyeva yazır: *"Prelüdlərin emosional-obraz dairəsi lirik əhval-ruhiyyələrin bolluğu ilə fərqlənir. 5, 7, 9, 15, 22 saylı prelüdlərə dərin psixologizm, daxili məzmun, meditativ inkişaf üsulundan istifadə edilməsi səciyyəvidir. Burada lirik hisslərin ardıcıl açılması, onların yeni tembr rəngarəngliyi ilə zənginləşdirilməsi öz əksini tapmışdır"* [1, s. 554].

Xəyyam Mirzəzadənin "Ağlar və qaralar" adlı fortepiano prelüdlər silsiləsi 1980-ci illərdə bu janrın inkişafında növbəti bir səhifəni açır. Bəstəkar 12 prelüddən ibarət bu silsiləni əvvəlcə orqan aləti üçün nəzərdə tutsa da, sonradan fortepiano üçün işləmişdir. Azərbaycan pianoçuları arasında ən çox ifa olunan bu silsiləyə R.Rzayeva, G.Səfərova, K.Neymanova kimi tanınmış pianoçular müraciət edərək, müxtəlif xarici ölkələrdə səsləndirmişlər. X.Mirzəzadənin "12 prelüd" silsiləsi dərin psixoloji məzmuna, zəngin musiqi dilinə və dolğun harmonik xüsusiyyətlərə malikdir. Janr və ifaçılıq xüsusiyyətləri baxımından fərqlənən silsilədə bəstəkar major-minor sistemindən uzaqlaşaraq, orijinal quruluş prinsipi nümayiş etdirmişdir. Prelüdlərdə homofon-harmonik üslub daxilində müxtəlif yazı texnikasının tətbiqi, milli məqam xüsusiyyətlərinin polifonik çoxsəsliliklə üzvi şəkildə qovuşması nəzərə çarpır.

1980-ci illərdə daha bir maraqlı prelüd nümunələri Rəhilə Həsənovanın 12 prelüddən ibarət olan "Çeşmə" silsiləsidir. R.Həsənovanın yaradıcılığı üçün səciyyəvi olan sərbəstlik bu silsilədə də nəzərə çarpır. Prelüdlər zəngin obrazlığa malikdirlər. Muğam və folklorun lirik obrazları ilə yanaşı qəhrəmani mövzulara da müraciət edilən bu prelüdlərdə eyni zamanda cəngi, yallı rəqslərinin ritmlərinə də rast gəlinir. Bu prelüd silsiləsi ifaçının texniki imkanlarının göstərilməsi baxımından əhəmiyyətlidir və mürəkkəb ritmik xüsusiyyətlər R.Həsənovanın prelüdlərin səciyyəvi cəhəti kimi vurğulana bilər. Prelüd janrına özünəməxsus yanaşma tərzi nümayiş etdirən R.Həsənovanın "Payız palitrası" adlı prelüd silsiləsi isə beş prelüddən ibarətdir. Bu silsilədə bəstəkar prelüdləri maraqlı şəkildə adlandırmışdır: "Ənbər", "Amarant", "Sarı", "Terrakot", "Siyena". İmpressionizm cərəyanın təsirinin duyulduğu bu prelüdlərdə bəstəkar milli musiqinin xüsusiyyətlərini, xüsusilə muğam intonasiyalarını qeyri-adi bir tərzdə tətbiq etmişdir. №3 "Sarı" adlı prelüddə "Sarı gəlin" mahnısının intonasiyalarından istifadə etməsi milli musiqimizdə prelüd janrının yenilənməsi istiqamətində maraqlı bir addım kimi dəyərləndirilə bilər.

2000-ci illərdə prelüd janrında yaranan əsərlər arasında Azər Rzayevin fortepiano üçün "6 prelüd" silsiləsi bəstəkarın özünəməxsus dəst-xəttiin ifadəsi baxımından əhəmiyyətlidir. Parlaq melodizm, romantizm elementlərinin və xalq çalğı alətlərinin ifaçılıq xüsusiyyətlərinin tətbiq edilməsi A.Rzayevin prelüdlərinin səciyyəvi keyfiyyətidir.

Afaq Cəfərovanın yaradıcılığında prelüd janrına iki fərqli dövrdə rast gəlinir. Hələ tələbəlik illərində "Fortepiano üçün 6 prelüd" silsiləsini yazan A.Cəfərova uzun illərdən sonra, 1990-cı illərdə yenidən bu janra müraciət edir. Bəstəkarın ilk prelüdlərinin musiqi dilində incə lirika və milli elementlərlə bağlılıq nəzərə çarpır. 1990-cı illərdə yazılan növbəti silsilədə XX əsr bəstəkarlıq texnikası üsullarını tətbiq edən bəstəkar fortepiano alətinin geniş səs və tembr imkanlarını lakonik ifadə tərzi ilə göstərməyə nail olmuşdur. Onun prelüdləri müasir dövrdə milli musiqimizdə janrın inkişafı mərhələsində əhəmiyyətli nümunələr kimi dəyərləndirilə bilər.

Prelüd janrında maraqlı nümunələr Elnarə Dadaşovanın yaradıcılığında müşahidə olunur. E.Dadaşovanın prelüdlərində müəllimi Qara Qarayevin prelüdlərinin 4-cü dəftərinin təsirindən irəli gələn yazı üslubu, ifadə vasitələrinin yığcamlığı nəzərə çarpır. Başlanğıc intonasiyanın işlənilməsi, harmoniya və fakturanın birləşməsi bəstəkarın prelüdlərinin əsas xüsusiyyətidir. Obraz baxımından müxtəliflik (ballada xarakteri, rəvayət səciyyəsi) E.Dadaşovanın prelüdlərində səciyyəvi keyfiyyətidir.

Müxtəlif illərdə prelüd janrına Azərbaycan bəstəkarlarının əksəriyyəti – M.Mirzəyev, O.Rəcəbov, N.Əliverdibəyov, F.Hüseynov, S.Fərəcov, A.Dadaşov və digərləri müraciət edərək, maraqlı janr nümunələri yaratmış və bu janra münasibətdə yeni yanaşma tərzi nümayiş etdirmişlər.

Yaradıcılıqlarını izlədiyimiz bəstəkarların prelüd janrında yazdıqları nümunələrə əsasən deyə bilərik ki, Azərbaycan bəstəkarlarının prelüdlərinin əsas xüsusiyyəti janrın məzmun və musiqi dili baxımından zənginləşməsi ilə bağlıdır. Klassik ənənələrin müasir texniki üsullarla qovuşması bu prelüdlərin səciyyəvi cəhətidir. İfaçılıq texnikasının mürəkkəbliyi və fortepiano alətinin bütün texniki imkanlarından istifadə olunması milli musiqimizdə yazılan prelüdlərdə aydın şəkildə özünü büruzə

verir. Həmçinin, Azərbaycan bəstəkarlarının prelüdlərində klassik ənənələrə əsaslanmaqla, melodik dil və məzmun baxımından yeniləşmə nəzərə çarpır və bu isə prelüd janrının milli musiqimizdə malik olduğu əsas keyfiyyəti kimi dəyərləndirilə bilər.

**Nəticə**

Həmçinin, muğam elementləri, aşıq intonasiyaları, xalq mahnıları üzərində qurulmuş prelüdlərə də rast gəlmək mümkündür. Bu xüsusiyyətlər Azərbaycan bəstəkarlarının prelüdlərində harmonik dilin zənginliyi, aydın musiqi tematizmi və məntiqi inkişafın istiqaməti ilə müşahidə olunur. Eyni zamanda digər janrların xüsusiyyətləri də prelüdlərdə nəzərə çarpır. Müasir bəstəkarlıq texnikası üsullarının tətbiq olunması, fortepiano alətinin geniş səs və tembr imkanlarının göstərilməsi, registr qarşılaşmalarına əsaslanma Azərbaycan bəstəkarlarının prelüdləri üçün səciyyəvidir. Bu baxımdan yanaşdıqda prelüd janrında yaranmış bütün nümunələrdə milli musiqinin ənənələri və müasir bəstəkarlıq texnikası üsulları yaradıcı şəkildə həllini tapmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan musiqi tarixi [5 cilddə] / tərt. ed. Z.Səfərova – Bakı: Elm, – c. 4. – 2019. – 823 s.
2. Dadaşzadə, Z.A. Biz bu dünyanın bir hissəsiyik. Məqalələr toplusu / Z.A.Dadaşzadə. – Bakı: Nurlan, – 2004. – 412 s.
3. Qarayev, Q.Ə. Oçerklər / Q.Ə.Qarayev. – Bakı: Çinar-Çap, – 2003. – 280 s.
4. Qasımova, S.C. Azərbaycan musiqi ədəbiyyatı / S.C.Qasımova. – Bakı: Adiloğlu, – 2009. – 248 s.
5. Актуальные проблемы фортепианного исполнительства и педагогики / сост. Ф.Ш.Бадалбейли. – Баку: Адилоглу, – 2008. – 152 с.
6. Алиева, З.Г. Фортепианные произведения Кара Караева. Некоторые вопросы стиля и исполнительской интерпретации: / автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 1973. – 24 с.
7. Гаккель, Л.Е. Фортепианная музыка XX века. Очерки / Л.Е.Гаккель. – Москва: Советский композитор, – 1990. – 286 с.



***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının***
***"Metodika və xüsusi pedaqoji hazırlıq" kafedrasının müdiri***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor***
***e-mail:mv.elnara@gmail.com***


**Elnara Mammadova**

## A LOOK AT THE DEVELOPMENT OF THE PRELUDE GENRE İN THE NATİONAL PROFESSİONAL MUSİCAL CULTURE

The presented article examines the development of the prelude genre in the professional musical culture of Azerbaijan and highlights the features of preludes written for piano. The article highlights the history of the development of the prelude genre and pays special attention to the use of this genre in the work of Azerbaijani composers. It is noted that in the works of Azerbaijani composers the prelude genre is updated at the level of musical language and content. It is emphasized that Azerbaijani composers managed to express their unique thoughts in the genre of prelude.

**Keywords:** *prelude, genre, polyphony, composer, creativity*

**Эльнара Мамедова**

**ВЗГЛЯД НА РАЗВИТИЕ ЖАНРА ПРЕЛЮДИИ В НАЦИОНАЛЬНОЙ ПРОФЕССИОНАЛЬНОЙ МУЗЫКАЛЬНОЙ КУЛЬТУРЕ**

В представленной статье рассматривается развитие жанра прелюдии в в профессиональной музыкальной культуре Азербайджана и подчеркнуты особенности прелюдий, написанных для фортепиано. В статье освещена история развития жанра прелюдии и особое внимание уделено вопросам использования этого жанра в творчестве азербайджанских композиторов. Отмечается, что в произведениях азербайджанских композиторов жанр прелюдии обновляется на уровне музыкального языка и содержания. Подчеркивается, что азербайджанским композиторам удалось выразить свои уникальные мысли в жанре прелюдии.

**Ключевые слова:** *прелюдия, жанр, полифония, композитор, творчество*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 30.01.2024**
**Son daxilolma tarixi:15.03.2024**